# Erməni faşizminin Sumqayıt məkri

**Erməni şovinistləri azərbaycanlıları tarixən yaşadıqları ərazilərdən deportasiya etmək, Qarabağı Ermənistana birləşdirmək üçün ötən əsrin 80-ci illərinin sonlarından açıq şəkildə separatçı əməllər və milli zəmində təxribatlar törətməyə başladılar. 1988-ci il fevralın 20-də ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin sessiyasını çağıraraq azərbaycanlı deputatların iştirakı olmadan qərar qəbul etdilər ki, bu vilayət Azərbaycanın tərkibindən çıxır və Ermənistana birləşdirilir. Fevralın 22-də isə onlar Qarabağda ağdamlı gənclər Əli Hacıyevi və Bəxtiyar Quliyevi öldürərək münaqişənin ilk qanını tökdülər. Bu faciədən cəmi bir neçə gün sonra - fevralın 27-29-da isə Sumqayıtda SSRİ Dövlət Təhlükəsizlik Komitəsi erməni millətçiləri ilə birgə Azərbaycana qarşı təxribat həyata keçirdilər.**

### Hər şey əvvəlcədən planlaşdırılmışdı

Həmin vaxt Sumqayıtda növbəti fitnələrini həyata keçirən erməni ekstremistləri şəhərdə erməni mənşəli Azərbaycan vətəndaşlarının evlərinə basqınlar düzənlədilər. Məlumatlara əsasən, erməniəsilli Eduard Qriqoryan adlı şəxsin başçılıq etdiyi basqınlar zamanı Sumqayıtda müxtəlif millətlərdən olan 32 nəfər (onlardan 26-sı erməni olub) öldürülmüşdü. Sumqayıtda baş verən iğtişaşlarda əsas təşkilatçılardan və icraçılardan olan və bir neçə dəfə məhkum edilmiş Eduard Qriqoryan ermənilərin "Krunk" cəmiyyətinin üzvü idi. Elə fevralın sonlarında Sumqayıt hadisələrində zərərçəkən ermənilərin əksəriyyəti də həmin cəmiyyətə könüllü maddi vəsait köçürməkdən imtina edənlər olub. Şahidlərin ifadələri ilə müəyyən edilib ki, "Krunk" cəmiyyətinə pul köçürən ermənilərin heç birinin evi hücuma məruz qalmayıb. Təxribat zamanı hündürmərtəbəli yaşayış evinin aşağı yox, birbaşa yuxarı mərtəbələrində yaşayan ermənilərin hədəf seçilməsi də hadisələrin törədilməsi üçün əvvəlcədən müəyyənləşdirilmiş siyahının olduğunu, yəni hər şeyin planlı şəkildə həyata keçirildiyini ortaya qoyur. Bununla həm də erməni faşistləri öz soydaşlarına "Krunk"a yardım etməyənlərin hansı ağır aqibətlə üzləşəcəkləri mesajını da ötürüblər. Bu, təxribatların məhz ermənilərin özləri tərəfindən məqsədli şəkildə törədildiyinə sübutdur.

Sumqayıt hadisələrinin erməni ekstremistləri tərəfindən planlı şəkildə həyata keçirilməsi ilə bağlı çoxsaylı dəlillərdən biri də hadisələrdən bir müddət əvvəl kütləvi şəkildə ermənilərin əmanət kassalarında olan pullarını çıxarmaları idi. Araşdırmalar üzə çıxarıb ki, Sumqayıtda yaşayan 1000-dək erməni 1988-ci il yanvarın 1-dən fevralın 25-dək əmanət kassalarından saxladıqları külli miqdarda pulu təcili çıxararaq köçüb gediblər. Aparılan istintaqla müəyyənləşdirilib ki, Sumqayıtda bəzi ermənilər malmülklərini öncədən çıxardıqdan sonra kompensasiya almaq məqsədilə öz evlərini yandırıblar.

### Azərbaycanlıların sayəsində qurbanların sayı az oldu

Sumqayıtdakı iğtişaşlar zamanı azərbaycanlı ailələr erməniləri öz evlərində gizlədərək soydaşları tərəfindən qətlə yetirilmələrinin qarşısını almışdılar. Elə bunun sayəsində də qurbanların sayı az olmuşdu. Baxmayaraq ki, həmin vaxtlarda indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar haylar tərəfindən silah zoruna deportasiya edilir, əmlakları talanır, özlərinə qarşı zorakılıqlar törədilirdi. Həmçinin separatçı qüvvələr DQMV İcraiyyə Komitəsinin sessiyasını çağıraraq Qarabağın Ermənistana birləşdirilməsi kimi qeyri-qanuni qərar qəbul etmiş, azərbaycanlı əhaliyə qarşı təzyiqlərə başlamış, iki gəncimizin qanını tökmüşdülər. Ancaq məhz Azərbaycan xalqının humanistliyi sayəsində erməni ekstremistləri qanlı planlarını düşündükləri kimi həyata keçirə bilməmiş, iğtişaşlar geniş miqyas almamışdı.

Təxribat törədən ermənilər dərhal dünyaya yalan informasiyalar çatdırmağa, bu təxribatları guya azərbaycanlıların törətdiyini tirajlamağa başladılar. İndiyə qədər də Ermənistan və erməni diasporu Sumqayıt hadisələrini saxtalaşdıraraq, tarixi faktları təhrif edərək təqdim edir, bəyanatlar verir.

Ötən il Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan tərəfinin bu hadisələrlə bağlı tamamilə əsassız bəyanatını şərh edərkən bildirib ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların, ekstremist təşkilatların əvvəlcədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi. SSRİ Baş Prokurorluğu tərəfindən baş vermiş hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanların müəyyən edildiyi hər kəsə məlumdur. Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlının olması bu iğtişaşların azərbaycanlı əhali tərəfindən həyata keçirilmədiyini sübut edir: "Hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb".

### Faşistin etirafı

Qondarma dövlət olan Ermənistanın keçmiş faşist rəhbəri Levon Ter-Petrosyan 1993-cü il iyulun 23-də "Yerkrapa" könüllülər birliyinin toplantısında erməni şovinistlərinin əsrlərdir həyata keçirdikləri planları, xalqımızı deportasiya, işğal, soyqırımı, terror və təxribatlarla necə üz-üzə qoymalarını açıq şəkildə etiraf edib. Bu yaxınlarda yayılan həmin çıxışında Petrosyan deyib: "Bizim hərəkat hesabına Ermənistan və Dağlıq Qarabağ erməni xalqının 600 il həll edə bilmədiyi problemin öhdəsindən gələ biliblər - Ermənistan və "Artsax" digər xalqlardan tamamilə təmizlənib.

...Təsəvvür edirsinizmi, bu gün 1988-ci ilədək burada yaşayan 170 min nəfər digər millətlərin nümayəndələri olsaydı, indi bizim dövlətçiliyimiz yox idi".

Ermənistanı necə monoetnik ölkəyə çevirdiklərini həyasızlıqla dilə gətirən Ter-Petrosyan daha sonra açıq şəkildə deyir ki, Azərbaycanda yaşayan ermənilərin köçünü də məhz özləri təşkil edib: "Əgər biz vaxtında başlamasaydıq, ən yaxşı halda 500 min erməni əsirlikdə olacaqdı (o vaxtadək onlar fiziki cəhətdən məhv edilməsəydilər). Bu, Ermənistanı dizi üstə qoymaq üçün güclü rıçaq ola bilərdi".

Faşist Levon Ter-Petrosyanın 32 il əvvəl, Ağdamın işğalından sonra etdiyi çıxışı da ortaya qoyur ki, Sumqayıt hadisələri erməni şovinistləri tərəfindən həyata keçirilib.

### Çirkin planın bəndlərindən biri

"Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir".

2019-cu ildə Sumqayıtın 70 illiyi ilə bağlı tədbirdəki çıxışında Prezident İlham Əliyev söyləyib ki, biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi? İstintaq Moskvadan gəlmiş qrup aparırdı, yəni tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir.

Dövlətimizin başçısı onu da əlavə edib ki, Qriqoryan həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır: "Bax sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdir".

Gətirdiyimiz bütün bu faktlardan da aydın görünür ki, 1988-ci il fevralın sonlarında erməni şovinist millətçilərinin təşkil etdiyi və erməni ekstremistlərinin həyata keçirdiyi Sumqayıt hadisələri faşist ideologiyalı hayların indiki Ermənistan ərazisində yaşayan yüz minlərlə azərbaycanlının zorla tarixi yurdlarından qovulması, Qarabağın Ermənistana birləşdirilməsi kimi çirkin planlarının qanlı bəndlərindən sadəcə biri olub.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.11.